# Xalq Əmanəti: Tağı Tağıyevin həyat palitrası

**Xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması istiqamətində bir-birindən dəyərli, tutarlı layihələr həyata keçirən "Xalq" Bank ASC 2010-cu ildən "Xalq Əmanəti" layihəsi ilə bu missiyanı şərəflə yerinə yetirir.**



Layihə çərçivəsində Azərbaycan, ingilis, rus dillərində çap olunan kitablar ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Ötən zaman ərzində xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, eləcə də Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal




Əhməd, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinovun, şəhid-heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilmiş və bədii albomlar nəşr olunmuş, xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin, dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görmüşdür.

2019-cu ilin son günlərində "Xalq" Bankın əsas binasının bədii qalereyasında klassik Azərbaycan rəngkarlıq məktəbinin parlaq nümayəndələrindən biri, Azərbaycan təsviri sənətində realist metodun təməlini qoymuş sənətkarlar nəslinə mənsub olan Tağı Tağıyrevin "Xalq Əmanəti" layihəsi çərçivəsində nəşr olunan "Tağı Tağıyev. Rəngkarlıq və qrafika" bədii albomunun təqdimatı və rəssamın əsərlərindən ibarət sərginin açılışı keçirildi. Tədbirdə ölkəmizin sənət və elm adamları, bank sektorunun nümayəndələri, ictimai xadimlər, rəssamın ailə üzvləri iştirak edirdilər.

Gecənin aparıcısı, respublikanın Əməkdar artisti Dilarə Səlim "Xalq" Bankın illərdir həyata keçirdiyi nəcib missiyadan söz açdı. "Xalq Əmanəti" layihəsinin xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması işində təqdirəlayiq iş olduğunu vurğulayan aparıcı sözü Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, bu günlərdə 92 yaşını qeyd edən xalq rəssamı Ömər Eldarova verdi. Akademik albom üzərində çalışan insanlara minnətdarlığını bildirərək dedi: "Tağı Tağıyev dahi rəssam və böyük müəllim idi. Layihənin sayca 19-cu nəşrinə rəssamın yaradıcılığının müxtəlif mərhələlərini ehtiva edən əsərləri daxil edilmişdir. Sərgilənən rəsmlər onun yaradıcılığının çox az bir hissəsidir, buna baxmayaraq burada olan hər bir əsər ustadın bütün varlığını açır, onun sonsuz istedadını nümayiş etdirir. Onun əsərləri mənə illər əvvəl böyük təsir göstərirdi, indi də həmin hissləri yaşayıram. Sənət zamanla sınanır, zaman isə Tağı Tağıyevin xeyirinə işləyir. Mən bugünkü tədbirlə bağlı hamını təbrik edirəm."

Albomun mətninin müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova Tağı Tağıyevi milli rəngkarlığımızda böyük iz qoymuş sənətkar, yaradıcılığı böyük məktəb olan ustad adlandıraraq dedi: "Tağı Tağıyev əsasən tematik tablolar, natürmort, portret, mənzərə və məişət səhnələrinin müəllifidir. Azərbaycanda realist boyakarlığın yaradıcılarından olan rəssam portret ustası kimi daha məşhurdur. Onun yaradıcılığında tarixi mövzular, tarixi şəxsiyyətlərin təsviri, zəhmətkeş insanların obrazları, əməyin tərənnümü, doğma təbiətin təsviri mühüm yer tutur. Sənətkarın "Koroğlu", "Poladəridən", "Qaynaqçı", "Göygöl", "Qarlı yollar", "Xalçasatan", "Uşaqlıq xatirələri", "Abşeron silsiləsi", "El gözəli", "Qarayanız qız" və bir çox rəsm əsərləri Praqa, Pekin, Dakar, Bağdad və s. ölkələrdə nümayiş etdirilmiş və böyük rəğbətlə qarşılanmışdır. Fırça ustasının yaratdığı "Qara Qarayev" və "Səttar Bəhlulzadə" tabloları dünyanın bütün sərgi salonlarında uğurla nümayiş olunur."

Digər çıxış edənlər Tağı Tağıyevin bir çox xarici ölkələrdə - Türkiyə, Yunanıstan, İtaliya, Fransa, İspaniyada səfərlərdə olduğunu və bu ölkələrin insanlarının həyatına dair tablolar çəkdiyini qeyd etdilər. Avropa və Afrika ölkələrində yaradıcılıq ezamiyyətində olan rəssamın dilindən, dinindən, irqindən asılı olmayaraq insanları, onların ideyalarını bədii boyalarla təsvir etdiyi, həmin səfərdən sonra yaratdığı "Afrikalı qız", "Salam, yeni dünya" əsərlərinin bu gün də böyük maraqla baxıldığı diqqətə çatdırıldı.

Tədbirin sonunda Tağı Tağıyevin oğlu, rəssam Əkrəm Tağıyev ailəsi adından "Xalq" Banka və layihənin yaradıcı kollektivinə minnətdarlığını bildirərək "Xalq Əmanəti" layihəsini Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında möhtəşəm iş adlandırdı və dedi: "Tağı Tağıyevin yaradıcılığı və milli incəsənətin inkişafındakı xidmətləri hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, Əməkdar incəsənət xadimi, respublikanın Xalq rəssamı fəxri adlarına layiq görülmüşdü.

Tağı Tağıyevin əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər muzeylərdə saxlanılır. "Xalq Əmanəti" layihəsinin bugünkü təqdimati isə nəinki Tağı Tağıyev sənətinə mən deyərdim ki, ümumilikdə Azərbaycan təsviri sənətinə verilən yüksək dəyərdir. Bu təşəbbüsdə, bu işdə əməyi keçən hər bir kəsə dərin minnətdarlığımı bildirirəm".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**